**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü Nizami Nadirovun 2009-cu il dekabrın 23- də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Fizuli Ömərovun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 109 saylı müraciətinin araşdırılmasına dair**

# R Ə Y İ

Bakı şəhəri 9 yanvar 2010-cu il, saat 15.00

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 51 saylı Qusar seçki dairəsi üzrə Şirvanovka bələdiyyəsinin üzvlüyünə namizədlər Fizuli Ömərov, Məhsim Məhsimov, Tofiq Əzizov, Şahmirzə Ağamirzəyev, Azər Mərdanov və Saruxan Badamov Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, adı çəkilən bələdiyyəyə seçkilər zamanı qanun pozuntularına yol verildiyini, dairə seçki komissiyasının isə onların müraciəti ilə bağlı heç bir hərəkət etmədiyini bildirərək, qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat" a uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə, seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında Mərkəzi Seçki Komissiyası qarşısında qaldırılmış vəsatət əsasında Mərkəzi Seçki Komissiyası araşdırmanın uzadılması haqqında qərar qəbul etmişdir.

Araşdırma nəticəsində əldə olunan sübutlardan görünür ki, 51 saylı Quba-Qusar seçki dairəsinin dairə seçki komissiyası tərəfindən yuxarıda göstərilən şəxslərin müraciəti seçki qanunvericiliyinə uyğun qeydə alınaraq, ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bununla bağlı müvafiq rəy verilmişdir. Aparılmış araşdırma nəticəsində 51 saylı Qusar seçki dairəsinin 55 saylı Şirvanovka kənd seçki məntəqəsində məntəqə seçki komissiyası üzvlərindən, müvafiq bələdiyyə üzvlüyünə seçilməmiş namizədlərdən, müşahidəçilərdən və digər seçki subyektlərindən izahatlar alınmış və həmin izahatlarla müraciətdə göstərilmiş pozuntu halları öz təsdiqini tapmamışdır. Bunun əsasında 51 saylı Qusar seçki dairəsinin dairə seçki komissiyası 3 yanvar 2009-cu il tarixdə şikayətin təmin edilməməsi haqqında qərar verərək,

onu qanunla müəyyən edilmiş qaydada ictimailəşdirmiş və qərarın surətinin maraqlı tərəflərə çatdırılması üçün müvafiq tədbirlər görmüşdür.

Beləliklə də, 51 saylı Quba-Qusar seçki dairəsinin Şirvanovka bələdiyyəsini əhatə edən 55 saylı seçki məntəqəsində səsvermə günü qanun pozuntularına yol verilməsi, həmçinin müvafiq dairə seçki komissiyasının hərəkətsizliyi ilə bağlı irəli sürülmüş iddialar öz təsdiqini tapmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və adıçəkilən Təlimatın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m**:

1. Vətəndaş Füzuli Ömərovun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 109 saylı müraciəti əsaslı olmadığından təmin edilməsin.
2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti şikayətçiyə göndərilsin.

Azərbaycan Respublikası
Mərkəzi Seçk Komissiyası
nəzdində ekspert qrupunun üzvü Nizami Nadirov